Bütün heyət erkən yardımdan faydalana biləcək təhsilalanları müəyyən etməkdə səy göstərməlidir. Erkən yardım təhsilalanın həyatının istənilən mərhələsində problem yaranan kimi dəstəyin göstərilməsi deməkdir. Bir işçinin təhsilalanın erkən köməyə ehtiyacı ola biləcəyi ilə bağlı narahatlığı varsa, o, ilk növbədə bu barədə məlumat verməli və TRST Koordinatoru ilə erkən yardım tələblərini müzakirə etməlidir.
Təhsilalan və ailə koordinasiyalı dəstəkdən faydalanmaq istərsə, TRST Koordinatoru ilə müvafiq tədbirlər barədə müzakirəyə dəvət ediləcəklər . Əgər onların erkən köməyə ehtiyacı olduğu müəyyənləşərsə və məsul şəxslər bu sahədə hər hansı təşəbbüs göstərməzsə, TRST Koordinatoru heyət üzvünün ehtiyac zəminində digər qurumlarla əməkdaşlığına müsbət yanaşmalıdır.
Məktəb şəraitində effektiv erkən yardım, təhsilalanın nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq üçün onun və ailəsinin müəyyən edilmiş ehtiyaclarını tezliklə qarşılamağa kömək məqsədilə, lazımi təqdirdə digər qurumlarla əməkdaşlıq və ya qarşılıqlı əlaqələr vasitəsilə yüksək keyfiyyətli dəstəyin (TRST Koordinatorunun nəzarəti altında) göstərilməsini nəzərdə tutur.
Hər bir halda bu təşəbbüslə həmin təhsilalanın rifahının yaxşılaşdırılmasına ümid edirik. Bununla belə, hər bir hal daimi nəzarətdə saxlanılmalı və təhsilalanın vəziyyəti yaxşılaşmırsa, bu zaman daha peşəkar sosial qayğı mütəxəssislərinə yönləndirilir.

## Əgər Narahatlıq varsa nə edilməlidir?

Əgər mövcud problem dərin narahatlıq ifadə etmirsə, məsələn: uşaq sinifdə tez-tez yorulursa, müəllim valideynlərlə danışmalı, vəziyyətin yaxşılaşmasını və dəyişiklikləri izləməli, o cümlədən Mərhələ Kordinatoruna məlumat verməlidir. Əgər daha ciddi problemdirsə, müəllim hər hansı tədbir görməzdən əvvəl TRST Koordinatoru ilə məsləhətləşməlidir. Valideynlər məlumatlandırılmalı və ciddi narahatlıq olarsa, müvafiq işçilər sinif müəllimi ilə birlikdə iclasda iştirak etməlidirlər.

### Uşağınızın zədələnmək təhlükəsi altında olduğundan şübhələnirsinizsə nə etməli?

Uşağın ciddi risk altında ola biləcəyindən şübhələndiyiniz, lakin "faktiki" sübutunuz olmadığı zamanlar olacaq. Uşağın davranışında dəyişiklik, rəsmlərində qəribəlik, habelə qeyri-müəyyən fiziki hərəkətlərin vərqinə vardığınız təqdirdə, TRST Koordinatoruna məlumat verin, nəticədə o, uşağa özünü ifadə imkanı tanıyacaq.

Müşahidə etdiyiniz bu əlamətlər bir sıra amillərdən qaynaqlana bilər. Uşağınızdan əhvalını soruşmağınızı və ya ona yardım təklif etməyinizi tövsiyə edirik.

Əgər söhbətdən sonra hələ də narahatsınızsa, narahatlığınızı TRST Koordinatoru ilə müzakirə etməlisiniz. Narahat olduğunuz məqamları "Narahatlığın İfadə Formasında'' (Baxın Əlavə II) qeyd edərək müvafiq TRST Koordinatoruna göndərin.

## Müraciətə Cavab

Təhsilalan ilə bağlı narahatlıqları bildirərkən və/və ya həll edərkən, bütün işçi heyəti məxfiliyi qoruyacaq və son dərəcə ehtiyatlı davranış nümayiş etdirəcək, həmçinin məsələyə cəlb olunan bütün təhsilalanlar müvafiq qayğı və dəstəklə təmin ediləcəklər. Heyət narahatlığını dilə gətirən təhsilalanı həmişə dinləməlidir. Bir təhsilalan işçiyə təhsilalanın istismarı haqqında bildiyini və ya təhsilalan etinasızlığının qurbanı olduğunu söyləsə, işçi aşağıdakıları etməlidir:

- təhsilalanın sərbəst danışmasına və sakitləşməsinə şərait yaradın, özünüz isə, təhsilalanın sözünü kəsməyin və sükutdan narahat olmayın.
- ürəkləndirici şəkildə başınızı yelləyin və "bu baş verdiyinə görə çox məyusam", "mənimlə paylaşmaqla düzgün iş görürsən" kimi ifadələr söyləyin. "bunu mənə daha əvvəl deməliydin" və ya "eşitdiklərimə inana bilmirəm." kimi cümlələr istifadə etməkdən çəkinin.
- aydınlaşdırmaq üçün lazım olan sualları minimum həddə çatdırın: “xahiş edirəm bu barədə mənə ətraflı məlumat verə bilərsənmi?” "bu, tam olaraq harada baş verdi?" və "bacı-qardaşının da başına belə bir şey gəlibmi?" kimi aparıcı suallar ünvanlamayın.
- uyğun bir zamanda, təhsilalana mövzunun müvafiq şəxslərə məxfi şəkildə çatdırılacağını söyləyin. məxfilik vədləri verilməməlidir (aşağıdakı “məxfilik” bölməsinə baxın).
- növbəti mərhələ haqqında məlumatlandırın. təhsilalan sizinlə birlikdə TRST Koordinatoru ilə görüşdə iştirak etmək istəyə bilər və ya ona məlumat verin ki, gün sonuna qədər özü və ya digər məsul şəxslər onunla görüşəcək.
- özlərini sıxıntılı hiss etdikləri təqdirdə dəstək istəyin.

## Fəaliyyətə Keçid

Fəaliyyətə başlamaq üçün yadda saxlayın:

- narahatlıqlarınızı günün sonuna qədər TRST Koordinatoruna bildirin;
- TRST Koordinatoru ilə əlaqə saxlamaq mümkün deyilsə, məlumatın həmin gün məktəbdəki digər cavabdeh şəxslə paylaşın;
- araşdırmağa təkbaşına başlamayın;
- məlumatı yalnız lazımi əsasda paylaşın - məsələni həmkarlarınız, dostlarınız və ya ailənizlə müzakirə etməyin;
- narahatlığın ifadə formasını tamamlayın (bax. əlavə ii);

- əgər çətinlik çəkirsinizsə, özünüz üçün dəstək axtarın.

## Məxfilik

ABC-də fəaliyyət göstərən işçilərin hər birindən məktəb daxilində baş verənlərin məxfiliyini qorumaq tələb olunur. Müəllimlər təhsilalanın və ya digər işçinin şəxsi məsələlərini və ya davranışlarını özlərinin razılığı olmadan açıq şəkildə müzakirə etməkdən çəkinməlidirlər. İşçilərə bu qaydalara hər zaman, hətta fasilələr zamanı və məktəbdən kənarda belə riayət etmələri məsləhət görülür. TRST Koordinatoru mümkün narahatlıqları Uşaqların Müdafiəsi üzrə Şuranın üzvü ilə əlaqə saxlayaraq peşəkarlıqla müzakirə edəcək.

Heyət onlara ciddi bir məsələ haqqında danışmaq istəyən təhsilalanlara və ya yetişkinlərə məxfilik zəmanəti verməməlidir, əks halda son nəticə həmin şəxslərin maraqlarını əhatə etməyə bilər.

Onlar əmin olmalıdırlar ki, məlumatı məsələnin həllində məsuliyyət daşımayan kənar şəxslərlə deyil, müvafiq tədbir görülməsini təmin etmək üçün yalnız məsul şəxslərlə məxfi şəkildə paylaşacaqlar. Məsələnin həllində iştirak edən bütün işçilər, xəbər verənləri bu təşəbbüsü nəticəsində qarşı tərəfdə yarana biləcək hər hansı qəzəbdən qorumaq, eləcə də onların lazımsız yerə stres hissinə qapılmasına yol verməmək üçün mümkün olan bütün üsullara baş vuracaqlar. Ümumiyyətlə, valideynləri övladının vəziyyətidən agah etmək məktəblərin öhdəliyidir . . Təhsilalanların valideynləri tərəfindən şiddətə məruz qalma ehtimalı varsa, məktəb həmin təhsilalanın vəziyyətinin daha da pisləşməsinə imkan verməmək üçün onun valideynlərinə məlumat vermir Bu halda siz dərhal TRST Koordinatoruna məlumat verməlisiniz.

## Zorakılığın Tanınması

Uşaqlarımızın zərərdən qorunmasını təmin etmək üçün hansı davranışların sui-istifadə və laqeydlik olduğunu anlamalıyıq.

İstismar və saymazlıq kobud rəftarın formalarıdır. Kimsə uşağa xəsarət yetirməklə, məsələn: uşağı vurmaqla və ya zərərin qarşısını almaq üçün tədbir görməməklə, yəni: kiçik uşağı evdə tək qoyaraq və ya bıçaq və ya kibritləri nəzarətsiz buraxılan körpənin əli çatan yerdə qoymaqla uşağa qarşı sui-istifadə edə və ya ona laqeydlik göstərə bilər.

Kobud rəftarın bir sıra müxtəlif kateqoriyaları var və hər biri aşağıda təsvir olunub.

**Fiziki Istismar**

Fiziki zorakılığa uşağı vurmaq, silkələmək, ona nəsə atmaq, zəhərləmək, yandırmaq, maye ilə yandırmaq, suda boğmaq, nəfəsini kəsərək boğmaq və ya başqa üsullarla xəsarət yetirmək daxil ola bilər. Fiziki zərər valideynin uşaqda olan xəstəlik əlamətlərini şişirtdikdə və ya övladının xəstələnməsinə qəsdən səbəb olduqda da baş verir - əvvəllər bu "Munchause Sindromu" adlanırdı, lakin indi daha çox uydurma və ya süni yaradılmış olan xəstəlik kimi istinad edilir. Fiziki zorakılığa qadın sünnəti də daxildir (aşağıdakı bölməyə baxın).

Yüngül bir əlamət təhsilalanın fiziki zorakılığa məruz qaldığını sübut etmir. Ancaq bir təhsilalan tez-tez xəsarət alırsa, lakin zədə və onun səbəbinin izahatı uyğun gəlmirsə, bu araşdırılmalıdır. Fiziki zorakılığın əlamətləri aşağıdakılar ola bilər:

- bədəndə xəsarət hallarına adətən rast gəlinməyən bud, bel, qarın kimi nahiyələrin zədələnməsi;
- suda boğulma, boğma və ya zəhərlənmə nəticəsində tənəffüs problemləri;
- müalicə olunmamış və ya qeyri-adekvat müalicə olunmuş zədələr;
- əl və ya barmaq izlərinə bənzər göyərmələr;
- siqaret yanıqlarının və ya insan dişlərinin izləri, çapıqlar, yara izləri və yanıqlar.

**Emosional İstismar**
"Emosional istismar" anlayışı uşağın emosional inkişafına ciddi və davamlı mənfi təsir göstərən istismar deməkdir. Bu cür zorakılıq uşaqlara özünü dəyərsiz, sevilməyən, qabiliyyətsiz, həmçinin onlara yalnız başqasının ehtiyaclarını ödədiyi zaman dəyərli olduğunu hiss etdirir. Bunun səbəbi, uşaqların yaşa və ya inkişaf səviyyəsinə uyğun olmayan gözləntilərə məruz qalması ola bilər. Bunlara uşağın inkişaf imkanlarından kənara çıxan qarşılıqlı təsirlər, həddindən artıq qoruma, tədqiqat və öyrənmənin məhdudlaşdırılması və ya uşağın normal sosial həyatına mane olmaq daxil ola bilər. Bunun digər bir səbəbi, başqa bir insanın pis rəftarını görməyiniz və ya eşitməyiniz ola bilər.
Emosional zorakılıq uşaqların tez-tez bulinqlə üzləşməsi nəticəsində qorxu və ya təhlükə hiss etməsindən, habelə istismar və ya hüquqlarının pozulmasından qaynaqlana bilər. Nadir hallarda baş versə də, emosional zorakılığın bir neçə xüsusiyyətinə uşağa qarşı pis rəftarın bütün növlərində rast gəlinir.
Emosional istismar əlamətləri fiziki deyil, davranış xarakterlidir (aşağıya baxın). Təhsilalan istismara məruz qalırsa, davranışında bir sıra dəyişikliklərə təsadüf edilə bilər. Buraya daxildir:

- aqressiv davranmaq və ya nizam-intizama əməl etməmək, nadinc olmaq, digər təhsilalanlara nisbətən daha çox diqqət və intizam tələb etmək;
- qəzəbli, həvəssiz və ya daha az yaradıcı olur;
- müəyyən böyüklərdən qorxmuş kimi görünür;
- kədərli olur, özünə qapanır və ya depresiyaya düşür;
- yuxusuzluq problemindən əziyyət çəkir;
- gənc yaşda cinsi həyata meyilli olur;
- digər təhsilalanlarla oyunlar zamanı yaşlarına uyğun olmayan qeyri-əxlaqi məlumat paylaşır və ya nalayiq hərəkət nümayiş etdirir;
- idman dəstini geyinməkdən və ya fiziki fəaliyyətlə məşğul olmaqdan imtina edir;
- iştahanın pozulması inkişaf edir;
- özünə zərər verir;
- məktəbə getməkdən imtina edir və ya evdən qaçır;
- özünə inamı və ya hörməti azalır;
- narkotik maddələr və ya spirtli içkilər istifadə edir.

**Cinsi İstismar**
Cinsi istismar, uşağın və ya yeniyetmənin baş verənlərdən xəbərdar olub-olmamasından asılı olmayaraq əxlaq pozğunluğu da daxil olmaqla cinsi fəaliyyətlərə məcbur və ya təhrik edilməsini əhatə edir. Bu fəaliyyətlər bilavasitə və ya dolayı yolla fiziki təması ehtiva edir. Bunlara, uşaqları əxlaqsız görüntüləri izləməyə və ya ədəbsiz materialların istehsalında iştirakına təşviq etmək, cinsi hərəkətləri müşahidə etmək və ya uşaqları ləyaqətsiz davranışlara vadar etmək və ya təhsilalanı istismara hazırlamaq (İnternet vasitəsilə daxil olmaqla) kimi təmassız fəaliyyətlər daxil ola bilər. Cinsi istismar yalnız yetkin kişilər tərəfindən edilmir. Qadınlar da digər təhsilalanlar kimi cinsi zorakılığa cəhd edə bilərlər.
Təhsilalanların cinsi istismar əlamətləri aşağıdakı hallarda təzahür edə bilər:

- hamiləlik
- cinsi yolla ötürülən infeksiya;
- genital hissədə/anusda ağrı, qaşınma, qanaxma, göyərmə və ya boşalma;
- sidik yolu infeksiyaları / cinsi yolla keçən xəstəliklər;
- gəzinti və ya oturma zamanı çətinlik və ya xroniki boğaz ağrısı;
- yanlış zamanda və ya uyğun olmayan yaşda cinsi davranış.

**Uşaqlara qarşı Cinsi İstismar (UCİ)**
UCİ, təhsilalanlara cinsi fəaliyyət müqabilində ehtiyac və ya istəyini qarşılamağı təklif edən cinsi istismar formasıdır. UCİ münasibətlərdə bir tərəfin digər tərəf üzərində hökmranlığını əks etdirir; buraya cinsi əlaqəyə girmək üçün xoş olmayan həmyaşıd təzyiqi ilə yanaşı məcburiyyət, təhdid və aldatma,eləcə də cinsi zorakılıq, məsələn: kiber bulinq və manipulyasiya daxildir. Yuxarıdakı davranış göstəricilərinə əlavə olaraq, UCİ təhsilalanlara səbəbsiz təqdim edilən hədiyyələr və ya onların gözlənilməyən yeni əşyalara sahib olması, istismara cəlb olunan digər gənclərlə ünsiyyət, özündən böyük yaşda insanlarla sevgi münasibəti qurmasında özünü biruzə verir . UCİ ilə əlaqəli narahatlıqlar dərhal təhlükəsizlik məsələləri üzrə cavabdeh şəxsə bildirilməlidir.

**Etinasızlıq**
Etinasızlıq uşağın fiziki və/və ya psixoloji ehtiyaclarının davamlı olaraq gözardı edilməsindən qaynaqlanır və onların sağlamlığına və ya inkişafına ciddi şəkildə mənfi təsir göstərə bilər . Hamiləlik dövründə ananın narkotik və ya spirtli maddələrdən asılılığı ,uşaq doğulduqdan sonra valideynin və ya qəyyumun uşağı evdən kənarlaşdırma, habelə kifayət qədər qida, geyim, sığınacaqla təmin etməməsi, uşağı fiziki və emosional zərərdən, eləcə də təhlükədən qoruya bilməməsi, yetərincə nəzarət edilməməsi, o cümlədən biganə qəyyumun öhdəsinə verilməsi, lazımi tibbi yardım və müalicə xidmətinin təmin edilməməsi uşağa qayğısız yanaşmanın bariz nümunələridir. Uşağın əsas emosional ehtiyaclarına əhəmiyyət verməmək və ya layiqincə yerinə yetirməmək biganəliyin təzahürüdür.

Təhsilalanların laqeydliklə üzləşməsinə aşağıdakı hallarda təsadüf edilir:
• yaşına görə çəkisi az və ya boyu çox kiçik görünür;
• hava şəraitinə uyğun geyinmirlər;
• heç bir səbəb olmadan tez-tez məktəbdən yayınırlar;
• müntəzəm olaraq nəzarətsiz qalır və ya onlara özlərindən kiçik bacı-qardaşlarına muğayat olmaq tapşırılır.

**Cinsi Istismar Məqsədi ilə Göstərilən Qayğı**
“Cinsi istismar məqsədi ilə göstərilən qayğı” bir şəxsin təhsilalanın özünü, onun həyatında söz haqqı olan böyükləri və əhatə olunduğu mühiti həmin təhsilalanın istismarı üçün hazırlayan prosesi ifadə edir. Təhsilalanlar və yeniyetmələr onlayn və ya real həyatda yad, eləcə də tanıdıqları biri tərəfindən istismara düçar ola bilər. İstismarçı istənilən yaşda kişi və ya qadın ola bilər. Bir çox təhsilalanlar və gənclər izlənildiyini və ya baş verənlərin istismar olduğunu başa düşmür. İzlənmə əlamətləri aydın olmaya da bilər. İstismar edən şəxslər da tanınmamaq üçün çox əllərindən gələni edəcəklər. Yetişkin təhsilalanlarda bu əlamətlər asanlıqla "normal” yeniyetmə davranışı ilə səhv salına bilər, lakin siz onun davranışında və ya şəxsiyyətindəki izaholunmaz dəyişikliklərin, o cümlədən şəxsi münasibətindəki təəccüb doğuran seçimlərinin fərqində ola bilərsiniz.

Təhsilalanın istismara hazırlanmasının meyarları aşağıdakılar ola bilər:

- internetdə etdikləri də daxil olmaqla çox məxfi olmaq;
- yaşca böyük oğlan və ya qızla sevgi münasibəti qurmaq;
- dostlarla görüşmək üçün müəmmalı yerlərə getmək;
- yeni mobil telefonlar, əşyalar və geyimlərə birdən-birə sahib olması və bunları haradan necə əldə etdiyini izah etməməsi;
- narkotik və spirtli içkilərdən istifadə imkanı əldə etmək;
- evdən və ya məktəbdən yoxa çıxmaq;
- davranışda dəyişikliklər nümayiş etdirmək;
- cinsi sağlamlıqla bağlı problemlər yaşamaq;
- intihara cəhd etmək və canına zərər vermək, həmçinin özünü dəyərsiz və depresiyada hiss etmək.

**Cinsi Təcavüzkarlar Tərəfindən Göstərilən İstismar Əlamətləri**

Bunu xatırlamaq vacibdir ki, bütün cinsi təcavüzkarlar bu əlamətləri göstərmirlər və əgər bir şəxs bu əlamətlərin bəzisini və ya hamısını daşıyırsa, bu, onun cinsi təcavüzkar olduğu mənasını vermir:

- təhsilalana həddindən artıq mehriban münasibət;
- təhsilalana üstünlük tanımaq və ya xüsusi diqqətlə yanaşmaq;
- sinifdən/məktəbdən kənarda təhsilalanla təkbətək və xeyli vaxt keçirmək;
- xüsusi və ya tərk edilmiş yerlərdə təhsilalanlarla tez-tez görüşmək;
- təhsilalanın məktəbdən və ya məktəbə aparıb gətirmək;
- təhsilalanın valideynləri ilə dostluq etmək və evlərinə baş çəkmək;
- müəyyən bir təhsilalanın sirdaşı kimi hərəkət etmək;
- təhsilalana kiçik hədiyyələr, pul, oyuncaqlar, açıqcalar, məktublar vermək;
- təhsilalan ilə namünasib ünsiyyət üçün mətn mesajları, telefon zəngləri, e-poçt və ya sosial media saytlarından istifadə etmək;
- cəzbedici davranmaq və ya təhsilalanın ətrafında biədəb ifadələr söyləmək.

**Korporativ İstismarın İdarə Formatı**

- Həssas qurbanların hədəflənməsi təcavüzkarların həssas, özünü tənha və müdafiəsiz hiss edən və/və ya yüksək emosional ehtiyacları olan qurbanları hədəfə almalarını nəzərdə tutur.
- Qurbanın etimadını qazanmaq anlayışı məxfiliyi təşviq etmək üçün təcavüzkarların təhsilalana adətən təhsilalanın valideynləri və ya məktəbi tərəfindən icazə verilməyən hərəkətləri etməyə icazə verə biləcəklərini nəzərdə tutur (məsələn, dondurma yemək, gec yatmaq, pornoqrafiyaya baxmaq).

- Korporativ cinayətkarlar çox vaxt təkcə qurbanlarının deyil, həm də onların ailəsi və ümumilikdə cəmiyyətin digər üzvlərinin etibarını qazanmağı bacarır və müvəffəqiyyətlə onlardan sui-istifadə edir.
- Təhsilalanlara hədiyyələr, mükafatlar, əlavə yardım və ya məsləhətlər, üstünlüklər, səyahətlər və ya ekskursiyalar üçün xüsusi diqqət və/yaxud imkanlar təklif etməklə onların ehtiyaclarını qarşılmaq və sevimlisinə çevrilmək.
- Təcavüzkar, təhsilalanı təcrid etmək üçün qurbanın dostları və ya ailə üzvləri ilə münasibətlərini ustalıqla zəiflədə və asılılığa təşviq edə bilər.
- Təcavüzkar cilvəli toxunuşlar, qıdıqlamalar və qucaqlaşmalar vasitəsilə ədəbsiz münasibətə şərait yarada bilər. Yetişkinlərin etdiyi zarafatlar və eyhamlar, eyni zamanda böyükləri maraqlandıran mövzularda, məsələn: evlilikdə olan problemler və ya münaqişələrdən danışmaq da buraya aid ola bilər.
- Təcavüzkarlar profesionallığı sayəsində təhsilalanı tabe olmaqdan başqa çarəsi olmadığına inandıraraq onları nəzarət altında saxlaya və gizliliyi qoruya bilərlər.

**Radikallaşma üçün İstismar Əlamətləri**

Bir yeniyetmənin radikallaşmadan təsirləndiyini bildirən məlum bir nümunə yoxdur, halbuki bir sıra göstəricilər var ki, pis niyyətlə göstərilən qayğıkeş münasibətlə birlikdə radikallaşma riskini artıra bilir. Bunlara daxildir:

- Uğursuzluq;
- ekstremist ədəbiyyata sahib olmaq;
- yoxsulluq;
- sosial təcrid;
- travmatik hadisələr;
- qlobal və ya milli hadisələr;
- dini inancını dəyişmək;
- davranışda dəyişiklik;
- ekstremist təsirlər;
- həyat tərzi ilə bağlı ailədə ziddiyyətlər;
- şəxsiyyət pozuntuları;
- irqi və ya ədavət zəminində törədilən cinayətlərin qurbanı və ya şahidi;
- həmyaşıdları, ailə üzvləri, sosial qruplar tərəfindən və ya inancına görə ondan imtina edilməsi.

**Qadın Sünnəti (QS)**
Bütün qurumlardakı mütəxəssislər, eləcə də müvafiq icmalardakı fərdlər və qruplar, qızın QS riski altında olması və ya artıq QS-ə məruz qalma ehtimalına diqqət yetirməlidirlər. Bir təhsilalanın və ya yeniyetmənin QS-ə məcbur edilə biləcəyinə aid bir sıra potensial göstəricilər mövcud olsa, bunlar tək-tək baş verdiyi təqdirdə sözügedən təhlükəni sübut etmir , lakin iki və ya daha çox fakt varsa, bu, təhsilalan və ya gəncin təhlükə ilə üz-üzə olduğunun qabarıq nümunəsidir.

QS qurbanları, çox güman ki, QS-in bir qayda olaraq tətbiq olunduğu bir cəmiyyətdən gəlir. İşçilər nəzərə almalıdırlar ki, QS-ə məcbur edilən qızlar hələ bu təcrübədən və ya onlar üçün tətbiq oluna biləcəyindən xəbərdar olmaya bilərlər, buna görə də bu mövzuya hər zaman həssaslıqla toxunulmalıdır. Ümumdünya Səhiyyə Təşkilatının rəsmi səhifəsində baş vermək üzrə olan və ya artıq həyata keçmiş bu proses haqqında ətraflı məlumatla tanış ola bilərsiniz. QS ilə bağlı narahatlığı olan istənilən yetkin şəxs dərhal təhlükəsizlik xidmətinin rəhbərinə müraciət etməlidir.

**Evdən və məktəbdən qaçan və ya itkin düşən uşaqlar**
Məktəbin vəzifələrindən biri təhsilalanların dərsə davamiyyəti üzrə qeydiyyat aparmaqdır. Uşaq məktəbdən qaçarsa və ya birdən gözdən itərsə, direktor vaxtında məlumatlandırılmalıdır. Əgər təhsilalan tapılmırsa və ya onu saxlamaq mümkün deyilsə, təcili olaraq polisə müraciət edilməli, həmçinin dərhal valideynlərlə əlaqə qurulmalıdır. Bütün faktlar isə sənədləşdirilməlidir.

**Bullinq**
Uşaqlar arasında bullinq, sui-istifadə və laqeydliyin tərkib hissəsidir və əhəmiyyətli dərəcədə narahatlığa və sıxıntıya səbəb ola biləcək çox ciddi problemdir.
Bullinqin bütün hallarından məlumat verilməlidir və onlar məktəbin bullinqə qarşı mübarizə prosedurlarının çərçivəsində həll edilməlidir. Bullinq mövzusu mütəmadi olaraq PSHE tədris proqramında müzakirə olunur. Bullinq xüsusilə şiddətlidirsə və ya bullinqə qarşı prosedurlar təsirsiz sayılırsa, məktəb direktoru uşaqların müdafiəsi prosedurlarının tətbiq edilməsini nəzərdən keçirəcəkdir.

**Həmyaşıd Tərəfindən İstismar**
Həmyaşıd tərəfindən istismar uşaqlar arasında və uşaq münasibətləri daxilində həyata keçirilən hər hansı bir fiziki, cinsi, emosional və maddi istismar və məcburi idarəetmədir. Bütün işçilər başa düşməlidirlər ki, uşaqlar həmyaşıdlarına qarşı zorakı davranmağa qadirdirlər. Həmyaşıd zorakılığı, bu bullinq (kiber-bullinq daxil olmaqla), cinsi zorakılıq, yoldan çıxarma, uyğun olmayan və ya zərərli cinsi oyunlar (azyaşlı təhsilalanlar üçün), cinsi təcavüz, qız və oğlan qruplarında cinsiyyət problemləri daxil olmaqla, lakin bunlarla məhdudlaşmayan müxtəlif formalarda ortaya çıxa bilər. Bu cür zorakılıq nadir hallarda tək-tək baş verir.
Buna görə də, həmyaşıdların zorakılığına qarşı hər hansı cavab yuxarıda təsvir edilən həmyaşıdların zorakılığının bütün mümkün növlərini nəzərə almalı və uşağın təcrübəsinin tam kontekstini əks etdirməlidir.

Əgər işçi, təhsilalanların hər hansı səbəbdən özünə və ya başqalarına zərər verə biləcəyinə inanırsa (bu, ciddi bullinq hallarını əhatə edir, lakin bunlarla məhdudlaşmır), narahatlığını bildirməli və dərhal təhlükəsizlik məsələləri üzrə cavabdeh şəxs ilə danışmalıdır.
**Bütün heyət aşağıdakıları diqqət mərkəzində saxlamalıdır:**
- təhlükəsizlik məsələləri həmyaşıdlar arasında zorakılıq müstəvisində təzahür edə bilər;
- Təhsilalanların həmyaşıdlarına qarşı zorakılıq hallarının baş verməsi mümkündür. Bu cür zorakılığa heç vaxt biganə qalmamalı və bunu "böyümə prosesində tez-tez rast gəlinən normal

vəziyyət" kimi qiymətləndirilən yanlış yanaşmanı əldə rəhbər tutmamalıdır.

**Nələrə diqqət etməlisiniz?!**

Bütün işçilər təhsilalanların təhlükəsizliyindən, eyni zamanda bu zorakılıq hallarını şərtləndirən vəziyyətlərdən agah olmalıdır . Bununla belə, işçilər yadda saxlamalıdırlar ki, uşaqların belə davranışları nümayiş etdirməsi öz təcrübələri nəticəsində fərqli olacaq.

Bir uşağın həmyaşıd istismarından əziyyət çəkə biləcəyinə dair əlamətlər digər istismar növlərini göstərən əlamətlərlə də üst-üstə düşə bilər və bunlara aiddir:

- məktəbə getməkdən imtina, dərslərdən yayınma və ya məktəb tapşırıqlarını adətən gözlənilən standarta uyğun olaraq yerinə yetirməkdə çətinlik çəkmək;
  - fiziki xəsarətlər almaq;
  - zehni sağlamlıq və/və ya emosional sağlamlıqla mübarizə aparmaq;
  - özünə qapanmaq, utancaq olmaq; baş/qarın ağrısı, narahatlıq və ya panik atak yaşamaq,; qorxulu yuxular görmək, yuxu çatışmazlığından və ya çox yatmaqdan əziyyət çəkmək;
  - alkoqol və ya maddə asılılığı da daxil olmaqla davranışda daha böyük dəyişikliklər;
  - görünüşündəki dəyişikliklər və / və ya uşağın yaşına uyğun olmayan davranışın başlanması;
  - başqalarına qarşı təhqiramiz münasibət.

İstismar uşaqlara çox fərqli təsir göstərir. Yuxarıdakı siyahı dolğun deyil və bu əlamətlərdən birinin və ya bir neçəsinin baş verməsi onların istismara məruz qaldığını göstərmir. Uşaqların nümayiş etdirdiyi davranış müəyyən vəziyyətlərlə əlaqəlidir. Uşaq xarakterinə xas olmayan və ya yaşı üçün xarakterik olmayan davranış nümayiş etdirdikdə, işçilər hər zaman belə davranışların əsas səbəbini (məsələn, uşağa həmyaşıdları tərəfindən təzyiq göstərilməsi və ya onların istismar edilməsi) araşdırmalı və əgər bu öz sübutunu tapsa, problemin nə olduğu müəyyən olunmalı və uşağa gələcəkdə hansı yardımın göstəriləcəyi müzakirə olunmalıdır.

**Cinsi Zərərli Davranışları olan Uşaqlar**

Uşaqlar, digər gənclər və uşaqlar tərəfindən zərər görə bilərlər. İşçilər zorakılıq nəticəsində meydana gələn zərərdən xəbərdar olacaq və lazımi yerdə bullinqə mübarizə məqsədilə məktəb prosedurlarından istifadə edəcəklər. Bununla birlikdə, uşağın davranışı bullinqə mübarizə prosedurunun tətbiqi yerinə, "uşaqların müdafiəsi" çərçivəsində cavab tədbirlərinin görülməsini tələb edir. Xüsusilə, araşdırmalar göstərir ki, uşaqlara qarşı cinsi istismarın 30%-i 18 yaşına çatmamış şəxslər tərəfindən törədilir.

Cinsi cəhətdən zərərli davranışları olan uşaqlar və gənclərlə işləmək çətindir və məktəb bütün məktəb icmasının təhlükəsizliyini təmin etmək üçün digər müvafiq qurumlarla əməkdaşlıq edəcəkdir. Bu davranışı göstərən yeniyetmələr özləri də istismar qurbanı ola bilər, odur ki təhsilalanların müdafiəsi üzrə müəyyən edilmiş prosedurları həyata keçirərkən həm zərər çəkəni, həm təqsirkarı nəzərə alınacaq.

## Yeniyetmələrin Yaratdığı Cinsi Görüntülər

Mütəxəssislər bu mövzunu "erotik mesajlaşma" adlandırsalar da, "erotik mesajlaşma" anlayışının dəqiq tərifi yoxdur. Araşdırmalara görə, bir çox mütəxəssis erotik mesajlaşma - nın "çılpaq və ya yarı çılpaq fotoşəkillər də daxil olmaqla eyhamlı erotik şəkillərin mobil telefonlardan və ya internet üzərindən göndərilməsi və ya yerləşdirilməsi" olduğuna inanır. Bununla belə, "Uşaqlara qarşı qəddarlığın qarşısının alınması üzrə milli cəmiyyət"in (NSPCC) son araşdırması göstərirdi ki, təhsilalanlardan "erotik mesajlaşma sizin üçün nə deməkdir?" deyə soruşanda, onu "səmimi və sərhədsiz mesajları tanıdıqları insanlarla bölüşmək" kimi şərh edirdilər. Eynilə, sonuncu "Learner Line" sorğusu göstərdi ki, bir çox valideynlər erotik mesajlaşmanı adi şəkillər kimi deyil, ələ salma və ya seksual mahiyyətli mesajlaşma kimi düşünürlər.

Bu mövzu yalnız təhsilalanlar tərəfindən cinsi xarakterli şəkillərin paylaşılmasını əhatə edir. 18 yaşına çatmamış şəxslərin seksual foto və videolarının çəkilməsi və yayılması qanunsuzdur və bu səbəbdən cavab verərkən, məktəblərdə (digər qurumlar arasında) ən böyük çətinliklərə səbəb olur, həm də diqqətli idarəetmə tələb edən bir sıra riskləri ehtiva edir.

Buna əsaslanaraq, bu siyasətdə "gənclərin yaratdığı cinsi görüntülər" ifadəsi "erotik mesajlaşma" sözünü əvəzin edir. Məqsədimiz nəzərdən keçirilən problemlərə aydınlıq gətirməkdir.

**Gənclərin yaratdığı cinsi görüntülər nədir?**

- "Gənclər tərəfindən yaradılan" ifadəsi, təhsilalanların özlərinin və ya digər şəxslərin yaratdığı şəkilləri paylaşmasını əhatə edir.
- "Seksual" sözü əxlaqsız" sözü ülə müqayisədə daha aydın səslənir. Bir şeyin "əxlaqlı" olub-olmadığına dair qərar həm dəyər mühakiməsidir, həm də kontekstdən asılıdır.
- "Şəkillər" həm fotoşəkilləri, həm də hərəkətli videoları ehtiva edir (və siyasət boyunca şəkillərə istinadən nəzərdə tutulan budur).

**Gənclər tərəfindən yaradılan görüntü növləri hansıdır?**

- Təhsilalan öz seksual görüntülərini yaradır və onları həmyaşıdları ilə bölüşür (həmçinin 18 yaşdan aşağı).
- Təhsilalan başqa təhsilalanlar tərəfindən yaradılan seksual görüntüləri həmyaşıdları (həmçinin 18 yaşdan aşağı) və ya böyüklər ilə bölüşür.
- Təhsilalan digər təhsilalanlar tərəfindən yaradılan seksual görüntülərə sahibdir.

**Hadisələrin İdarə edilməsi**

Yeniyetmələrin yaratdığı cinsi görüntülərlə bağlı bütün hadisələrə məktəbin "Təhlükəsizlik Siyasəti"nə uyğun olaraq cavab verilməlidir.

Yeniyetmələr tərəfindən hazırlanan seksual görüntülərlə bağlı bir hadisə işçinin diqqətini cəlb etdikdə:

- Hadisə ən qısa müddət ərzində TRST Koordinatoruna bildirilməlidir;
- TRST Koordinatoru müvafiq məktəb heyəti ilə ilkin baxış məzmunlu iclası təşkil etməlidir;
- TRST Koordinatoru "məktəblərdə və kolleclərdə erotik mesajlaşma: hadisələrə cavab və gənclərin təhlükəsizliyi' bölməsində qeyd olunan prosedurlara və təlimatlara əməl edəcəkdir;
- iştirak edən təhsilalanlara daha sonra danışıqlar aparılmalıdır (lazım olduqda);
- valideynlərin cəlb edilməsinin təhsilalana zərər verməyəcəyindən əmin olduğumuz təqdirdə, valideynlər erkən məlumatlandırılmalı və məktəblə birgə fəaliyyətə başlamalıdır.

## Başqa bir Yetkin Şəxsin davranışı haqqında ittihamlar

Məktəbimizdəki təhsilalanların təhlükəsizliyi və rifahının təmin edilməsi, bütün işçilərimizin diqqətli olmasından və istənilən yetkin şəxsin təhsilalanlarla işləmək üçün uyğunluğunu şübhə altına alan hər hansı dərin narahatlıq kəsb etməyən məsələ barədə belə TRST Koordinatorunu dərhal məlumatlandırmağından asılıdır. Bu cür narahatlıqlar hər hansı bir yetkin şəxs üçün yarana bilər. Bu bölmədə "böyüklərə" aid olan istinadlar, başqa cür göstərilmədiyi təqdirdə, hər hansı bir yetkin şəxs (yuxarıda göstərilən ) və istənilən bir ziyarətçi üçün şərh edilməlidir. Məktəb təhsilalanlara qayğı öhdəliyinin fərqindədir və məktəbdənkənar vəziyyətlərdən və ya şəxslərdən istismar ehtimalı barədə xəbərdarlıq edildiyi təqdirdə hər zaman təxirəsalınmaz tədbirlər görəcəkdir.

Yetkinlərlə əlaqəli bütün narahatlıqların bildirilməsi və yubadılmadan həll edilməsi, təhsilalanların müdafiəsi üçün mühümdür. Bu, istismarı müəyyənləşdirməyə və qarşısını almağa, yetkinləri anlaşılmazlıqlardan və ya səhv şərhlərdən qorumağa kömək edir.

Bundan əlavə, dürüstlüyü, inamı və şəffaflığı təşviq edir və gözlənilən davranışları aydınlaşdırır. Narahatlıq və ya ittihamları vicdanla dilə gətirənlər həmişə dəstək görəcəklər və barəsində narahatlıq və ya iddia qaldırılan böyüklər iddiaların əsaslı olduğu aşkar edilmədikcə heç bir zərər görməyəcəklər.

## Ciddi Narahatlıq Doğurmayan Məsələlər

Məktəbin "ciddi əhəmiyyət kəsb etməyən narahatlıq" siyasətinin əsas məqsədi, "Davranış Siyasəti"mizdə əks etdirilən aydın dəyərlərin və gözlənilən davranışların yerinə yetirildiyi, daim nəzarət edildiyi və gücləndirildiyi bir mühitin yaradılmasını təşviq etməkdir. Bu təşəbbüs, "Uşaqları Qorumaq üçün Birgə Çalışırıq" şüarına uyğundur: "Mütəxəssislər onlardan ayrı-ayrılıqda nə tələb olunduğunu və birlikdə necə işləməli olduqlarını aydın şəkildə başa düşdükdə təhsilalanlar ən yaxşı şəkildə qorunur". Xüsusilə bu siyasətin məqsədi:

- İşçilərin özlərindən və həmkarlarından gözlənilən davranışlardan əmin olduğu, sərhədlərin müəyyən olunmasında və hesabat təqdim edərkən açıq, etibarlı və şəffaf mühiti qorumaq.İşçilərin, istər öz, istərsə də həmkarlarının "Davranış siyasəti"mizdə müəyyən edilən standartlara uyğun gəlməyən davranışları ilə bağlı hər hansı çox ciddi narahatlığa səbəb olmayacaq məqamları ifadə etmək hüququna sahib olduqlarını təmin etmək.

- Bu cür problemlər ortaya çıxdıqda operativ, həssas və nisbi həllini təmin etmək, bir tərəfdən ortaya çıxan problemlərin tez və səmərəli həll olunacağına inamı dəstəkləmək, digər tərəfdən də işçiləri saxta ittihamlardan və ya anlaşılmazlıqlardan qorumaq.

**Ciddi narahatlıq doğurmayan məqamlar hansılardır?**

Qeyri-ciddi narahatlıq, nə qədər az əhəmiyyət kəsb etsə , və ya "sadəcə şübhə" dən ibarət olsa belə, yetkin şəxslərin "məktəb işçilərinin davranış siyasəti"nə uyğun olmayan bir şəkildə hərəkət etmə ehtimalını və ya sadəcə - müəyyən bir fəaliyyətlə əlaqəli olmasa da – böyüklərin təhsilalanlara və ya onların ətrafında nümayiş etdirdiyi davranışlarına dair hər hansı narahatlıq hissini ifadə edir.

Bəzən bir insan başqalarına güzəştə gedə bildiyi və ya yanlış anlaşıldığı bir vəziyyətə düşə bilər. Eynilə, bir şəxs hər hansı bir səbəbdən "İşçilərin davranış qaydaları siyasəti"ndə təqdim edilən standartlara zidd rəftar etdiyinin fərqinə vara bilər. Bu şəraitdə həmin şəxs öz-özünə hesabat verməyə həvəsləndirilir, çünki bu zaman onun həm gözlənilən davranış standartlarını, həm öz hərəkətlərini, həm də onların kənardan necə qəbul ediləcəyini dərindən düşünmək imkanı olur. Beləliklə, məktəb qeyri-ciddi problemlər barədə öz-özünə hesabat verməyi, hər kəsin ən yüksək davranış standartları üçün səy göstərdiyi bir mədəniyyətin qorunmasında aparıcı rol oynadığını hesab edir.

**Narahatlığım varsa nə etməliyəm?**

Ciddi mahiyyət daşımayan bir narahatlığın olsa belə, tezliklə və istənilən halda, (narahatlığın müəyyən bir hadisə ilə bağlıdırsa) xəbərdar olduqdan sonra 24 saat ərzində Direktora bildirilməlidir.

**Qeyri-ciddi narahatlıq necə həll olunacaq?**

Direktor ona təqdim edilən ciddi narahatlıq ifadə etməyən bütün məsələləri ən qısa müddətdə, yəni ən gec 24 saat ərzində məktəb rəhbərliyi ilə müzakirə edəcək.Məktəb direktoru ilk növbədə bu problem dərin olmadığına və daha ciddi bir problem/iddia halına gətirilməməsinə və aşağıda göstərilən müvafiq prosedura uyğun olaraq nəzərdən keçirilməsinə əmin olacaqdır. Dərin mənfi təsirə malik olmayan problemin yenidən təsnif edilə biləcəyi hallar bunlardır:

- daha böyük narahatlıq/iddia üçün başlanğıc rolunu oynayırsa
- bir sıra qeyri-ciddi problemlər var ki, bunlar birlikdə daha kəskin narahatlığı/iddianı təmsil edir və ya
- nəzərə alındıqda daha dərin narahatlıq/iddia ilə nəticələnən digər məlumatlar da ortaya çıxdığında.

Məktəb direktoru problemin həllinin nisbətən mühüm olduğunu müəyyən etdikdən sonra onu ifadə edən şəxslə müzakirə edəcək və lazım olduqda məsələni araşdırmaq üçün digər addımlar atacaq. Kəskin narahatlıq yaratmayan problemlərin əksəriyyəti təbiətcə çox güman ki, ikinci dərəcəlidir və idarəetmə vasitələrinin köməyi ilə həll olunacaqdır.

**Hansı qeydlər aparılacaq?**

TRST Koordinatoru, haqqında araşdırma etdiyi şəxslə bağlı "narahatlıq ifadəsi" vasitəsilə qeyri-ciddi problem barədə məlumat verdiyində qeydə alınır. Bu, hər hansı bir məqamın müəyyən edilə bilməsi üçün lazımdır.

Bununla birlikdə, problem (və ya problemlər qrupu) daha həlli vacib olan bir problem kimi yenidən nəzərdən keçirilmədiyi halda, b) habelə məktəbin şikayət, peşəkarlıq və ya intizam proseduru çərçivəsində rəsmi bir ittiham ilə nəticələnəcək qədər ciddi deyilsə, fərdin şəxsi sənədlərində (iş üçün təqdim edilən tövsiyə məktublarında) narahatlıqla bağlı heç bir qeyd aparılmayacaq .

**Dərin narahatlıqlar və ittihamlar**

Müraciətləri nəzərdən keçirərkən məktəb həmişə 2022-ci ilin sentyabrında qəbul edilən ''Təhsildə Uşaqların Təhlükəsizliyinin Təşkili" sənədində müəyyən edilən təlimatlara əməl edəcəkdir.

Birincidərəcəli narahatlıqlar və ya ittihamlar, bir yetkin şəxsin aşağıda qeyd edilənləri həyata keçirdiyini iddia edən hər hansı bir davranışdır:

- təhsilalana zərər verdi və ya zərər verə biləcək tərzdə davrandı;
- təhsilalana qarşı və ya onun iştirakını təşviq etməklə cinayət törətmə ehtimalı olundu;
- təhsilalana və ya təhsilalanlara zərər vermə riski ola biləcəyini göstərən bir tərzdə davrandı.

Ciddi narahatlığı və ya ittihamı müəyyən bir hadisə, davranış modeli və ya ikincidərəcəli narahatlıq stimullaşdıra bilər ki, bu da nəzərdən keçirildikdə əhəmiyyətli dərəcədə böyük bir narahatlıq/iddia təşkil edə bilər.

**Ciddi narahatlığım varsa nə etməliyəm?**

Dərin narahatlıq ifadə edən məsələlər və ya ittihamlar dərhal Məktəb Direktoruna bildirilməlidir. Narahatlığın səbəbkarına və ya ittiham olunan qarşı tərəfə məlumat verilməməlidir.

Əgər ittiham Baş Menecer haqqındadırsa, TRST Koordinatoru müraciəti Məktəb Direktoruna yönləndirəcəkdir.

Əgər ittiham Məktəb Direktoru haqqındadırsa, Təklükəsizlik Rəhbəri məsələnin həllini Baş Menecerə həvalə edəcəkdir.

**Daha ciddi narahatlıqlar və ya ittihamlar necə həll ediləcək?**

Direktor (və ya direktorla bağlı ittihamın olacağı təqdirdə Baş Menecer) Direktorlar Şurası ilə əlaqə saxlayacaqdır. İdarə Heyətinin qərarı ola bilər:

- yerli sosial xidmətlər tərəfindən aparılan rəsmi araşdırma
- əgər cinayət tərkibi varsa polis istintaqı

## Məxfilik və Məlumat Mübadiləsi

Müraciət daxil olduqda, məktəb məxfiliyi qorumaq və ittihamın araşdırılması və ya qiymətləndirilməsi zamanı xoş olmayan söz-söhbətin yayılmasına mane olmaq üçün hər cür səyi göstərəcəkdir. 2011-ci il İngiltərə Təhsil Qanunu, eyni məktəbin təhsilalanı tərəfindən və onun adından təqsirləndirilən müəllimin şəxsiyyətinin müəyyənləşdirilməsinə səbəb ola biləcək hər hansı bir materialın yayımlanmasına məhdudiyyətlər qoydu (əgər belə bir identifikasiya müəllimin ittihamın mövzusu olduğunu aşkarlayarsa).

Məhdudiyyətlər tətbiq edən qanunvericilik, ittiham obyekti olan müəllimin şəxsiyyətinin ortaya çıxarılmasına səbəb ola biləcək materialların "yayımlanmasının" qadağan olunduğunu açıq şəkildə göstərir. "Yayımlanma" "geniş ictimaiyyətə və ya onun hər hansı bir hissəsinə ünvanlanan nitq, yazı, müvafiq proqram və ya digər ünsiyyət formalarını"əhatə edir. Bu o deməkdir ki, məsələn: valideyn sosial şəbəkədə ittiham barədə ətraflı məlumat yayımlayarsa hesabat məhdudiyyətlərini pozacaqdır (dərc olunanlar müəllimin şəxsiyyətini ictimai nümayəndələr tərəfindən müəyyənləşdirilməsinə səbəb olarsa).

İlkin araşdırmanın nəticələri məlum olduqdan sonra, ittiham olunan şəxs və təhsilalnın və ya təhsilalanların valideynləri ümumiyyətlə mümkün qədər tez məlumatlandırılmalıdır. Bununla belə, əgər strategiyanın müzakirəsi, habelə polisin və ya təhsilalan sosial xidmətlərinin cəlb edilməsi zərurəti yaranarsa, bu qurumlarla məsləhətləşməyincə nə ittiham olunan şəxs, nə də valideynlər məlumatlandırılmamalıdır.

Araşdırma zamanı məktəb yerli sosial xidmətlərlə məsləhətləşərək valideynlərə, işçilərə və digər təhsilalanlara hansı məlumatların veriləcəyinə və mətbuat sorğularına necə cavab veriləcəyinə qərar verəcəkdir.

**Məktəbdən uzaqlaşdırılma məsələsinə baxılacaq hallar**

Məktəbdəki bir təhsilalanın və ya təhsilalanların təqsirləndirilən şəxs tərəfindən təhdid altında olduğundan şübhələnmək üçün bir səbəb varsa və ya işdən çıxarılmaq üçün əsas ola biləcək qədər ciddidirsə, həmin şəxs məktəbdən uzaqlaşdırıla bilər.

## Təhlükəsiz Məktəb Mühiti– Təhlükəsiz Heyət

Məktəb heyətə və digər məsuliyyətli böyüklərə (könüllülər daxil olmaqla) aşağıdakıları tövsiyə edir:

- Mümkünsə, "Heyətin davranış qaydaları"na əməl edərək, təhsilalanlarla fiziki təmasdan çəkinin.
- Təhsilalanlara təkbətək işləyərkən, imkan daxilində, CCTV sistemi ilə təchiz olunmuş, qapısı açıq və ya şəffaf pəncərəsi olan bir otaqda olun
- Təhsilalanlarla yalnız müəyyən edilmiş sərhədləri gözləməklə ünsiyyət qurun və məktəb mühitindən kənarda təhsilalanlarla əlaqəni mümkün qədər minimuma endirməyə çalışın.
- Təhsilalan məktəb tərəfindən icazə verilən vasitələrdən kənarda sizinlə şəxsi əlaqə yaratmağa cəhd edərsə, Məsul Rəhbərlik işçisini xəbərdar edin.
- Təhsilalan yetkin şəxsə və ya digər həmkarına həddindən artıq bağlılıq əlamətləri göstərirsə, Məsul Rəhbərlik işçisini xəbərdar edin.
- Təhsilalanlarla və ailələrinə jest, rüşvət və ya istismar kimi şərh edilə biləcək hədiyyələr verməyin.
- Təhsilalanların hər hansı fəaliyyətdə iştirakına və ya fəaliyyətdən xaric edilməsinə qərar verərkən onlara bərabər şəkildə davranın, ayrıseçkiliyə və ədalətsizliyə yol verməyin.
- Cinsi mövzular vəziyyətdən asılı olmayaraq, ancaq normal tədris şəraitində və təkbətək olmamaq şərtilə müzakirə edilsin.

## Valideynləri Xəbərdar Etmə

Məktəb uşaqla əlaqəli hər hansı bir narahatlığı daim valideynlərlə müzakirə etməyə çalışır. Biz bu məsələyə həssaslıqla yanaşırıq belə ki, TRST Koordinatoru təhsilalanın narahat olduğunu hiss edərsə, ondan şübhə duyarsa və ya təhsilalan iddia irəli sürərsə valideynlə əlaqə quracaqdır. Bununla birlikdə, məktəb, valideynə məlumat verilməsinin uşaq üçün riski artıra biləcəyini və ya problemi daha da pisləşdirəcəyini düşünərsə, əvvəlcə Yerli Xidmətlərdən məsləhət alacaqdır.

## Xüsusi, Gigiyenik Qayğı

Məktəbəqədər təhsil müəssisəsində təhsil alan təhsilalanların məktəbdə paltarını dəyişərkən köməyə ehtiyac duyduğu müəyyən vaxtlar olur. Bu siyasətdə bütün təhsilalanların geyimlərini dəyişərkən tam və ya qismən yardım xahiş etdiyi vəziyyətlərdə işçilərin riayət etməli olduğu müəyyən prosedurlarla yanaşı, təhsilalanların gigiyenik qayğı ilə təmin edilməsini aydın şəkildə ehtiva edən qaydalar öz əksini tapır.

Bu təlimatlar və prosedurlar hər hansı bir uşağın aşağıda sadalanan bir sıra hallarda geyimini dəyişməsinin zəruri olduğu zaman tətbiq edilir. Məsələn:

- uşaq müəyyən tibbi xəstəlikdən və ya ümumi inkişafdan qaldığı üçün özünə nəzarəti itirir, beləliklə alt paltarını isladır və ya çirkləndirir;
- uşaq qusur, altını isladır və ya batırır;
- uşaq əyləncəli fəaliyyətlərdə, yəni rəsm və ya su oyunlarında iştirak edərkən üst geyimini isladır və ya kirləndirir;

- uşağın fiziki fəaliyyət üçün paltarını dəyişməsində dəstəyə və köməyə ehtiyacı olur.

**Xüsusi gigiyenik qayğı tapşırıqlarına uyğun olaraq aşağıdakılar daxildir:**

- alt paltarını geyindirmək və soyundurmaq;
- kiməsə ayaqyolundan istifadə etməyə kömək etmək;
- bədənin beldən aşağı hissələrini təmizləmək /silmək/ yumaq;
- dizdən aşağı, qol, üz və ayaq müalicəsindən başqa tibbi müalicəni tətbiq etmək.

**Şəxsi gigiyenanın tərifi:**
"Hərçənd ki bu təşəbbüs başqa bir insana toxunmağı ifadə edir, burada çox dərin fiziki təmas nəzərdə tutulmur və təhsilalanın xarici görünüşünü səliqəyə salmaq məqsədi daşıyır".
**Şəxsi qayğı xidməti üçün xüsusilə aşağıdakılar səciyyəvidir:**

- qidalanma;
- ağızdan dərman qəbul etmək;
- saç daramaq;
- Üst paltarını geyinmə və soyunma;
- bədənin bütün hissələrinin təmizliyi;
- ayaqyolu ehtiyacı.

Uşaqların gigiyenik ehtiyacları həyatlarının digər aspektlərindən ayrı düşünülə bilməz. Təhsilalanları öz şəxsi ehtiyaclarının qeydinə qalmağa həvəsləndirmək, onların gündəlik həyatda özünəxidmət prosesini asanlaşdırmaq münasibətilə həyata keçirilir Bütün uşaqlar təhlükəsizlik, həmçinin ləyaqət və hörmətlə rəftar olunmaq hüququna malikdir. Təhsilalanların şəxsi ehtiyaclarına cavabdeh olan işçilər onlara qayğıkeş münasibət bəsləməlidir. İşçilər bəzi böyüklərin gigiyenik qayğıdan uşaqların istismarı üçün bir fürsət kimi istifadə edə biləcəyini bilməlidirlər. Bəzi gigiyenik qayğı tapşırıqlarının /müalicələrinin səhv yozula biləcəyini nəzərə almaq vacibdir.

## Ayaqyolu Təlimi

ABC - dən başlayaraq işçilər həm uşaqların, həm də valideynlərinin yeni mühitdə nə qədər çətinlik yaşadıqlarını başa düşürlər. Bu, bütün uşaqlar üçün böyümə və sürətli inkişaf dəyişikliyi dövrüdür. . Erkən yaş dövrünün bütün inkişaf mərhələlərində müəyyən bacarıqlara yiyələnmək, o cümlədən təhsilalanlarda ayaqyolu ehtiyaclarını sərbəst ödəmək kimi vərdişlərin formalaşması geniş zamanı əhatə edir.
Biz başa düşürük ki, uşaqlar məktəb mühitinə daxil olarkən artıq aşağıdakı təcrübələrdən keşmiş ola bilərər:

- sərbəst ayaqyolu vərdişi;
- ayaqyolu vərdişlərinə tamamilə yiyələnmiş, lakin yeni mühitə qoşulmağın gətirdiyi həyəcan və stres səbəbindən bir az geriləyib;
- evdə tam ayaqyolu təlimi keçirilib, ancaq məktəbdə ayaqyolundan istifadə zamanı xoşagəlməz hadisələrlə üzləşməsi (yıxılması və sair) və ya əksinə;
- demək olar ki,təlim keçmişdir, lakin bəzi xatırlatmalara və təşviqlərə ehtiyac duyur;

- ayaqyolu vərdişlərinə sahib deyil, amma müəyyən ayaqyolu təlimi prosesində müsbət nəticə göstərir (işçilər təhsilalanlara aşılanan belə bacarıqların evdə möhkəmləndirilməsi məqsədilə valideynləri bu prosesə cəlb edəcəklər);
- ayaqyolu bacarıqlarını tamamilə mənimsəyib, lakin ciddi fiziki məhdudiyyəti və ya öyrənmə çətinliyi var;
- İnkişaf gecikmələri səbəbindən əlavə dəstəyə ehtiyacı var;
- şəxsi gigiyena problemləri və özünəqulluğun bəzi və ya bütün aspektlərindəköməyə ehtiyacı var.

**Yuxu zamanı prosedurlar:**
ABC-də məktəbəqədər təhsil bölməsində təhsilalanların yuxu saatları var, bu səbəbdən valideynlər məktəbə övladları üçün pijama dəsti təqdim etməlidir. Dəst çirkləndiyi halda həftənin sonunda valideynlərə geri qaytarılacaq. Təhsilalanlarla yatmağa hazırlaşarkən paltarlarını sərbəst şəkildə dəyişdirmələri tövsiyə olunur, lakin işçilər (müəllimlər və köməkçi müəllimlər) ehtiyac olduqda onlara kömək edə bilərlər. Təhsilalanlar geyimlərini yataq otağında dəyişəcək. Hər uşaq məktəb tərəfindən kətandan hazırlanmış və təmiz yataq dəstləri ilə təmin olunacaqdır.

**Sağlamlıq və Təhlükəsizlik:**
Buraya aşağıdakılar daxil olmalıdır:

- işçilər təhsilalanın bədən nahiyələrini təmizləyərkən birdəfəlik əlcək geyinməlidirlər;
- çirklənmiş paltar və ya alt paltarları lazımi qaydada atılmalıdır;
- tualet otaqları təmiz qalmalıdır;
- Proses bitdikdən sonra əlləri yumaq üçün isti su və sabun mövcuddur;
- əlləri silmək üçün kağız dəsmallar təmin edilir.

## Əlavə I:

"Uşaqların təhlükəsizliyi və müdafiəsi siyasəti"nin şərtlərinin qəbul edilməsini təsdiq edən sənəd.

Ad: ________________________________ ABC-yə qəbul tarixi: __________

Mesaj: ______________________ İnduksiya tarixi: _________

Mən, məktəbin təqdim etdiyi "Uşaqların müdafiəsi" siyasətində əks olunan qaydaları oxuduğumu və qəbul etdiyimi təsdiq edirəm. Uşaqların rifahını qorumaq və təşviq etmək öhdəliyimdən xəbərdar oldum. Uşaqla bağlı problemlərin bildirilməsi qaydası mənə izah edildi.

İmza: ________________________________________________________________

Tarix: ________________________________________________________________

## Əlavə II

ABC-də təhlükəsizlik: Narahatlığın bildirilməsi üçün məlumat forması

| Narahatlığın İfadəsi Forması | |
|---|---|
| Bu forma narahatlıq səbəbləri olduqda doldurulmalı və ən qısa müddətdə Təhlükəsizlik Rəhbərinə təqdim edilməlidir | |
| **Şagird haqqında məlumat** | |
| Ad: | Doğum tarixi: |
| İl və sinif: | Sinif rəhbəri: |
| **Narahatlığını İfadə Edən Şəxsin Məlumatı** | |
| Ad: | Vəzifə: |
| | |
| Bu narahatlıqlar konkret hadisə ilə əlaqəlidirmi /açıqlama?<br>Əgər BƏLİ’dirsə A bölməni tamamlayın;<br>Əgər XEYİR'dirsə, B bölməsinə keçin | |
| **A bölməsi:** | |
| Hadisənin tarixi və günü: | Hadisənin/açıqlamanın yeri: |
| Formanın doldurulma tarixi: | İştirak edən digər şəxs: |

| **B bölməsi:** | |
|---|---|
| Narahatlıq/ açıqlama/ hadisə haqqında məlumat: (Nə deyildi, müşahidə edildi, məlumat verildi. Ehtiyac olduqda sxemdən istifadə edin)) | |
| Görülən tədbirlər: (Bundan sonra nə etdiniz/ hadisə /açəqlama /narahatlıq?) | Digər müvafiq məlumat: |
| İmza: | Tarix: |

AZERBAIJAN BRITISH COLLEGE
EXPLORE TO ACHIEVE

## Yaranan Narahtlığı Izah Etmək üçün Forma

Narahatlığınızı aydın şəkildə izah edin və hər bir problemi istinad məqsədləri üçün nömrə ilə qeyd edin.

| Təhsilalanın adı: | Müşahidə edən: |
| --- | --- |
| | |



Digər müvafiq məlumat:

| İmza: | Tarix: |
| --- | --- |
| | |